# AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNDƏ QABIQYEYƏN BÖCƏKLƏRİN (COLEOPTERA, CURCULİONİDAE, SCOLYTİNAE) ÖYRƏNİLMƏ TARİXİNƏ DAİR

**Kəmalə İsayeva**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Zoologiya İnstitutu,*
*kemale.behlulqizi@mail.ru*

Bütün dünyada olduğu kimi, respublikamızda da meşə və meyvə ağacları müxtəlif bitki zərərvericilərinin hücumuna məruz qalır. Bu zərərvericilər arasında qabıqyeyən böcəklər (Coleoptera, Curculionidae, Scolytinae) xüsusi yer tutur. Onlar öz inkişaflarını başa vurmaq üçün ağacların qabığı altında və oduncağında uzun illərlə qidalanaraq ağacların məhvinə səbəb olurlar. Sürfələrin inkişafı əsasən bitkinin gövdə və budaqlarında ağacın qabığı altında gedir. Bəzi qabıqyeyənlər isə (Thamnurgus, Hylastinus cinsinə aid növlər) ot bitkilərinə zərər vururlar. Qabıqyeyən böcəklərin ağaclara vurduğu ziyan nəticəsində ağaclar fizioloji cəhətdən zəifləyərək texniki göstəriciləri aşağı düşür. Əsasən, müxtəlif səbəblərdən zədələnmiş və ya zəifləmiş ağaclara hücum edən bu böcəklər kütləvi çoxalma illərində sağlam ağaclara da hücum edərək onların qismən və ya tamamilə qurumasına səbəb olur. Qabıqyeyən böcəklər həyat tərzinə görə öz qida bitkiləri ilə sıx bağlı olan böcəklərdir. Bu, bütün qabıqyeyənlərin bitki mənşəli qidalanmaları ilə əlaqədardır. Qidalanma tipinə görə onlar ksilofaqlara aid edilir [1, s. 61; 4, s. 124]. Qabıqyeyən böcəklər qidalanma xüsusiyyətlərinə əsasən, xarici görünüşləri bir-birindən fərqlənən 3 qrupa bölünür: lifyeyənlər (Hylesininae) (*Blastophagus piniperda* L., *Hylesinus oleiperda* F. və s.), oduncaqyeyənlər (Scolytinae) (*Scolytus intricatus* Ratz., *S. scolytus* F. və s.) və əsl qabıqyeyənlər (Ipinae) (*Ips sexdentatus* Boern., *Ips typographus* L. və s.) [3, s. 314; 5, s. 16]. Onların morfoloji quruluşları da bir-birindən fərqlənir. Qabıqyeyən böcəklərin (Scolytinae) dünyada 6000 növü, keçmiş SSRİ-də 300, Qafqazda 137 növü məlumdur [2, s.189; 6]. Azərbaycanın qabıqyeyən böcəklərini ilk dəfə entomoloq N.H.Səmədov tədqiq etmişdir. O, 1963-cü ildə çapdan çıxmış "Azərbaycanda kənd təsərrüfatı bitkilərinə zərər verən böcəklərin fauna və biologiyası" adlı kitabında 11 növ qabıqyeyən böcək haqqında ətraflı məlumat vermişdir ki, bu qabıqyeyən böcəklərin də 9 növü ağac bitkilərinin, 2 növü isə ot bitkilərinin zərərvericisidir. Müəllif bu qabıqyeyən böcəklərin dünyada və Azərbaycanda yayıldığını göstərmişdir. Belə ki, N.H.Səmədov (1963) qeyd etdiyi 11 növ qabıqyeyən böcəkdən 6 növün Azərbaycanın Qarabağ ərazisində yayıldığını müəyyən etmişdir. Bu növlərə Meyvə qabıqyeyəni – *Scolytus mali* Bechstein, Qırışıqlı qabıqyeyən – *Scolytus rugulosus* Ratzeburg, Əncir qabıqyeyəni – *Hypoborus Ficus* Erichson, Dəyişik qərb qabıqyeyəni – *Xyleborus Dispar* Fabricius, Çoxqidalı dəyişik qabıqyeyən – *Xyleborus saxeseni* Ratzeburg, Qarayonca qabıqyeyəni – *Hylastinus obscurus* Marsham aiddir.

Təəssüf ki, Azərbaycanın Qarabağ bölgəsində yayılmış qabıqyeyən böcəklərin öyrənilməsi Qarabağ və ətraf rayonların erməni işğalı üzündən 30 ilə yaxın müddətdə qeyri-mümkün olmuşdur. Ümid edirik ki, Qarabağ və ətraf rayonların işğaldan azad olunması nəticəsində artıq bu ərazilərdə tədqiqatlar aparmaq mümkün olacaq.

**Ədəbiyyat:**

1. Ağayev B.İ. Ümumi entomologiya. Bakı: ADPU nəşriyyatı, 2004, 303 s.
2. Azərbaycanın heyvanlar aləmi / M.Ə.Musayevin redaktəsi ilə. Bakı: Elm, 2004, 3 cilddə, 2-ci cild. Buğumayaqlılar tipi, 388 s.
3. Воронцов А.И. Лесная энтомология. М.: Высшая школа, 1967, 399 с.
4. Криволуцкая Г.О. Энтомофауна Курильских островов. Л.: 1973, 315 с.
5. Шевырев И.Я. Загадка короедов. М.: 1969, 96 с.
6. Nikulina T.V. The keys for identification of bark-beetles (*Coleoptera: Curculionidae: Scolytinae*) of Ukraine // Caucasian Entomological Bulletin, 2014, 10 (1), pp. 89-106.